# SENTYABRIN ÖTƏSİ. DÜNYAYA KİMLƏR GƏLİB, KİMLƏR GEDİB...

...Ağlıma bir fikir gəlib, gəlibsə, bəri başdan gərək deyəm. Dünyanın gülməcəsinə baxsana, bir çox məmləkətlərdə sənət, sənət və sənətçini sıxma-boğmaya salanda, sistemin həvəng-dəstində əzib suyunu çıxaranda daha çox yüksəlib, boy-buxun atıbdı... Fransanın, İtaliya və İspaniyanın, ümumiyyətlə Avropanın tarixi beləcə misallarnan doludu.

Həvəng-sistemsə əzib-əzib, xırpalayıb, hər şeyin cövhərini çıxarıbdı... Deyirlər, Şimalın qızıllı yerlərində bərk keçən qışdan sonra külçə daha çox tapılır. Şaxta torpağı sıxır, sıxır və qızıl külçəsi pırtlayıb üzə çıxır...

Doğrudanmı, inkivizisiya öz tonqallarını çatıb pusquda dayanmasaydı, Leonardo Da Vinçi, Qoyya yer üzünə gəlməyəcəkdi?! Kardinal Rişelye olmasaymış, Lüdovik dövrünün Fransası azman qələm sahibləri yetişdirməyəcəkmiş?! Bəlkə Platonovun, Pasternakın, Axmatovanın nənnisini Cuqaşvili yırğalayıb? Madam ki, Anti-dünya mövcuddu, bəlkə bir müstəbid doğulanda onun əksi, vergili bir kəs də dünyaya gəlir?! Müstəbid nə qədər qəddardısa (Allah keçsin günahımdan!) Dahi o qədər parıldaq olur...



***

...Üzeyir Hacıbəyov Koroğlunu kəsakəs vaxtı, bolşevik baltasının ən ovxarlı vaxtında yazıb. Hər kəsənin öz fikri özüyçün və Koroğlu Koroğlu yerində, ancaq mənçə, Üzeyir bəyin şah əsəri - Leyli-Məcnundu. Gör bir sən nə boyda Dahi olasan ki, belə bir ilahi fikrə düşəsən və avropa operasını bir İdeya kimi götürübən, qızılgüllərnən süslü, şərq çeşnili bir Allah Payı yaradasan. Mən qızılgül, çeşni dedim, - bu Leyli-Məcnunun mənim təsəvvürümdə necəliyidi. Ərz eləyim ki, bu külçənin azərbaycan səhnəsində heç bir quruluşu ürəyimdən deyil. Əsər millilik, Şərq deyə nalə çəkir, rejissorlarsa üzlərini tuturlar günbatana... (Leyli-Məcnunun quruluşu barədə düşündüklərimi yazmaq mənə qismət olsun). Hələliksə, bircə kəlməni özümə borc bilirəm ki, operanın musiqisi, onun bir-birini əvəz eləyən müqtədir ifaçıları, səslər hər şeyi ört-basdır eləyir və çox təəssüf ki, bu boyda incini dünya nədi, heç Şərqdə belə yaxşı tanıda bilməmişik. Üzeyir bəy yeganə bəstəkardı ki, yazıb-yaratdıqları xalqın yaddaşında artıq çoxdan folklora çevrilib. Deməli millətin yaşamaqda olduğu ömrünün-gününün bir parçasıdı. Üzeyir bəyin qələmindən çıxan mahnılar, xor və ariyalar uşaqdan böyüyə hamının dilində süd-əzbərdi...

Amma, mənim Azərbaycan operasında, bəlkə də dünyada ən çox xoşladığım ariya - şah İsmayılda Aslan şahındı. Bəstəkarı da çox istedadlı, ağayana bir adam olub. Çox işin qulpundan yapışıb, hamısını da axıracan. Azərbaycanda maarifçiliyin, xüsusilə də musiqi maarifçiliyinin yorulmaz öncüllərindən biridi. Dirijor, bəstəkar, musiqi təşkilatçısı... Azərbaycan xalq çalğı alətləri orkestrini yaradan da Müslüm Maqomayevdi. (Məsələdən xəbəri olmayanlar bunu Üzeyir bəyin adına yazırlar. Üzeyir bəy həmin orkestrə sonradan tarzən kimi dəvət olunub).

Üzeyir bəylə Müslüm bəyin yaxınlığı, ekiztaylığı bir bədiyədi. Ancaq, Allahın vergi verdiyi bu iki böyük şəxsiyyətin münasibəti iraq-iraq Motsart-Salyerilikdən yer-göy qədər uzaq olub. Üzeyir-Müslüm doğmalığı dünyanın, mən deyərdim ki, çox qəribə fenomenlərindən biridi. Kaş o kişilərdə olan ürək genişliyindən, məhrəmlikdən, türkün sözü, sevgi-sayğıdan bir çınqı bu günkülərdə olaydı...


Müslüm Maqomayev

***

...Bəli, qaldı Mir Cəfər... Bu tamam başqa bir söhbətdi. Daha doğrusu, məncə ədəbiyyat söhbətidi. (Rəhmətlik Ənvər Məmmədxanlı mənə demişdi ki, M.C.Bağırov kimi çox ziddiyyətli bir şəxsiyyətdən pyes yazmaq fikrindədi. Mənə elə gəlir ki, istedadı, qələminin gücü axıra qədər açılmayan yazıçı Mir Cəfərə - Haqverdiyev Ağa Məhəmməd Şah Qacara, Şekspir Piçarda, Folkner-Kamyu Kaliqulaya baxan pəncərədən baxacaqdı. Heyf...)

Nə isə... Tarix onunçundu ki, yeri gələndə hər kəs ondan öz dərsini götürə. O ola ki, İnsan deyilən şey də Tarixin xırdaca bir modeli, yapmasıdı. Sən, dövrün əyiş-üyüşlüyünə bax: Ən yaxşı operamız "Koroğlu" - o vaxt yaranıb. Ən yaxşı filmimiz "Arşın mal alan" - o vaxt çəkilib. Teatrımızın ən işlək çağı o vaxt olub. Ən iri xanamız o vaxt toxunub...

...Və bütün bunların üstündən - ən yaxşı ziyyalılarımızdan bir neçəsini Şura hökuməti gedər-gəlməzə o vaxt göndərib...

Bıçağın qə qədər iti olsa da, neyləməli, Tarix-tarixdi, kəsib ata bilməzsən. Saf-çürük başqa məsələ... (Qəribədi, vaxtilə stadionu qan çanağına döndərən Pinoçetin iştəkləri yaddan çıxıb. Dünya, iqtisadi inkişafın Çili (daha doğrusu Pinoçet) modelinə ağzı sulana-sulana baxır və hətta təzəbinə ölkələr ondan faydalanmaq meylindədi...)

...İstər Tarixə, istərsə də Şəxsiyyətə matrosvari yanaşmaqdan zindeyi-zəhləm gedir. Biz də, M.C.Bağırovun, necə deyərlər, atılmasını ataq, baxaq görək, ondan nəyi əxz eləyə bilərik, - belə cəhətlərisə olub. Özü də çox olub. O da başqa söhbətdi...

...Yəni, sözümün canı odu ki, İnsan ibarətdi İşıq və Qaranlıqdan! Nur kündəsi ancaq Peyğəmbərlərdi. Əğstəfürullah, bəlkə heç onlar da yox...

Bir də... Dostoyevski ona görə böyükdən böyük yazıçıdı ki, insanı hər üzünə tanıdır. İşığıynan, zülmətiynən... (Gəl ki, slavyanpərəstliyi olmaya...)

◆